# Milli QƏHRƏMAN ANILDI

Yanvarın 11-də Bakı şəhərindəki Murad Hacıyevin adını daşıyan 116 saylı məktəbin binasında fəaliyyət göstərən Milli Qəhrəman Kazım Ərşad oğlu Məmmədov adına Böyük Mərcanlı kənd tam orta məktəbində Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş "Əbədiyyətə qovuşan ömür" adlı tədbir keçirildi. Tədbirdə rayon Təhsil Şöbəsinin müdiri Zamiq Qurbanov, RİH-nin əməkdaşları Vilayət Cabbarov, Hüseyin Sadıqov, 116 saylı məktəbin direktoru Gülnaz Kərimova, istefada olan polkovnik-leytenant Fazil Bəhramov, yazıçı-publisist Nazir Çərkəzoğlu, Kazım Məmmədovun anası Dursun xala, qardaşı Bəşir, əmisi Sabir, bacıları Şamama və başqaları iştirak edirdilər.



Tədbiri giriş nitqi ilə məktəbin direktoru Nuriyyə Ağayeva açdı. Dövlət Himnimiz səsləndirildi.

Daha sonra məktəbin direktoru Nuriyyə xanım bildirdi ki, məktəbimizin adını daşıyan Milli Qəhrəman Kazım Ərşad oğlu Məmmədova həsr olunmuş "Əbədiyyətə qovuşan ömür" adlı xatirə gecəsinə yığışmışıq.

Kazım Məmmədovun xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra şagirdlərin ifasında milli vətənpərvərlik ruhlu şeirlər səsləndirildi, mahnılar ifa olundu. Ayrı-ayrı məktəblilərin dilindən səslənən "Hardan başlanır Vətən?" sorğusuna da elə məktəblilər özləri müxtəlif prizmadan yanaşmaqla rəngarəng cavablar verdilər: Bayrağımızdan, Himnimizdən, Gerbimizdən, Kazım Məmmədovdan, Mübariz İbrahimovdan, Ramil Səfərovdan, doğma Cəbrayıldan, Azərbaycan torpaqlarının bütövlüyündən, səndən, məndən, bizdən, hər birimizdən başlanır Vətən və s. kimi cavablar Vətən anlayışının özlüyündə nə qədər dürlü məna çalarlarını daşıdığını bir daha diqqətə çarpdırırdı.

"Əbədiyyətə qovuşan ömür" adlı mikrofilmdə Kazımın ailə üzvlərinin söhbətləri əsasında onun həyatda necə mehriban, qayğıkeş insan olduğu ifadəsini tapırdı.

Daha sonra məktəblilərin ifasında Kazım Məmmədovun həyatının müxtəlif anlarını, habelə şəhid olduğu məqamı və s. əks etdirən səhnəciklər nümayiş etdirildi. Kazımın həyatından səhifələr elə məharətlə ifa olunurdu ki, sanki onun həyatı gözlərimizin qabağında canlanırdı. Tədbir iştirakçıları qeyri-ixtiyari ciblərindən əl dəsmallarını çıxardıb, doluxsunmuş-yaşarmış gözlərindən saxlaya bilmədikləri gözlərinin yaşını silirdilər. Xüsusən əllərində Azərbaycan bayrağını yellədərək, hərbi libasda döşlərinə gerb və bayraqlar taxılmış məktəblilərin ifasında səslənən vətənpərvərlik ruhlu şeirlər, kiçik yaşlı məktəblilərin ifasındakı "Qarabağ" şikəstəsi iştirakçıları heyrətə gətirirdi, tədbirin möhtəşəm ovqatını həmahəng olaraq tamamlayırdı.

Kazım Məmmədovun anası Dursun xanım məktəbin kollektivinə belə bir ədəbi-bədii gecənin keçirilməsinə görə minnətdarlıq duyğularını çatdırdı.

Qeyd etdi ki, bu tədbirə baxdım sevindim, qürur duydum, amma həm də yaralarımdan qan axdı, yaram təzələndi. Bu, elə bir ağır dərddir ki, torpağa qarışsaq da, bu dərd, bu dağ bizdən getməz. Allah Azərbaycanımızı qorusun: *"Bir at mindim başı yox, Bir çay keçdim daşı yox. Girdin qanlı döyüşə, Yanında yoldaşı yox"*. Dursun ana bu bayatını söyləyib. "Allah, sizi var eləsin, şəhidlərimiz hamımızındır" dedi.

Şəhidin qardaşı, bacıları, əmisi çıxışlar etdilər, çəkilən əziyyətə görə minnətdarlıqlarını bildirib, gün olsun ki, belə tədbirləri kəndimizdə, Cəbrayılda keçirdək dedilər.

Cəbrayıl rayon İcra Hakimiyyətinin əməkdaşı Vilayət Hidayətoğlu çıxışında Kamal müəllimin, Arif müəllimin salamlarını çatdırıb, bu cür yüksək səviyyəli tədbirin hazırlanmasında məktəbin müəllim və şagird kollektivinin ünvanına xoş fikirlər səsləndirdi.

Rayon Təhsil Şöbəsinin müdiri Zamiq Qurbanov:

- Əzizimiz Kazım Məmmədov, biz sizi salamlayırıq, ona görə ki, bu gün siz bizimləsiniz, sizin ruhunuz bizim yanımızda, bizimlə bir yerdədir, - deyərək üzünü şəhidin anası Dursun xanıma tutdu:

- Əzizimiz Dursun ana, siz ölkəmizdə 110 anadan birisiniz, siz fəxarət yerimizsiniz, siz başınızı uca tutmalısınız ki, belə qəhrəman oğul yetirmisiniz. Nə qədər ki, bizim qəhrəman oğullarımız var, Azərbaycanımız yaşayır, yaşayacaqdır.

Daha sonra Təhsil Şöbəsinin müdiri məktəbin kollektivinə, məktəbin direktoru Nuriyyə müəlliməyə minnətdarlıq hisslərini ifadə etdi. 116 saylı məktəbin rəhbərliyinə məktəblərində məcburi köçkün məktəbinə belə gen-bol şərait yaratdığına görə təşəkkürlərini yetirdi. Bildirdi ki, bu tədbirdə şagirdlərimizin simasında işğalda olan torpaqlarımızı azad edəcək gələcək Kazım Məmmədovun qəhrəmanlıq ruhunu gördüm, bütöv Azərbaycanımızı gördüm. Belə tədbirlərin keçirilməsi həm də vacibdir ki, şagirdlərimizdə vətənpərvərlik ruhu tərbiyə olunur, savadlı, qabiliyyətli vətəndaş kimi formalaşmasında bu cür tədbirlərin əhəmiyyəti çox böyükdür. Mən bu tədbirdə onu da müşahidə etdim ki, şagirdlərimizin gözəl nitqi var, - deyən Zamiq müəllim məktəbin səsinin sorağının həmişə yüksəklərdə eşidilməsi arzusu ilə fikirlərini tamamladı.

116 saylı məktəbin direktoru Gülnaz Kərimovaya da söz verildi: -Təbiət arasında eynilik olmadığı kimi, insanlar, millətlər arasında da eynilik yoxdur. Ermənilər də bizdən fərqli olaraq təcavüzkar və ədalətsizdirlər. Torpaqlarımızı işğal ediblər. Söz yox ki, igidlərimizin sayəsində torpaqlarımız işğaldan azad olunacaq. Diqqətinizə çatdırım ki, bizim 116 saylı məktəbin adını daşıyan Murad Hacıyev məktəbimizin coğrafiya müəllimi olub, 20 Yanvar şəhididir. Bundan başqa, məktəbimizin məzunu Xaliq Əzimzadə isə 2016-cı ilin aprel şəhididir. Bu il Prezidentin Sərəncamı ilə 15 sentyabr məktəblərimizdə ilk dərslər Cocuq Mərcanlıya qayıdışla bağlı mövzuya həsr olundu. İnanırıq ki, yaxın gələcəkdə biz digər torpaqlarımıza, o cümlədən Cəbrayıla qayıdışın bayramını edəcəyik və Kazım Məmmədovla bağlı tədbirləri də onun doğulduğu, adını daşıdığı Böyük Mərcanlıda, Cəbrayılda qeyd edəcəyik.

Məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi, tədbirin fəal təşkilatçılarından olan Səidə Allahqulu qızı Quliyeva alovlu bir çıxış edərək qeyd etdi ki, tədbirboyu qurduğumuz səhnəni nağıl, əfsanə əsasında yox, şəhidin anasının danışdığı real həyat hadisələri əsasında qurduq. Bu mənada biz bu gün burada nağıl, əfsanə yox, real həyat dərsi yaşadıq. Ənvər Məmmədxanlının "Buz heykəl" hekayəsində fədakar ana obrazı var, eləcə də bədii ədəbiyyatda xeyli sayda müqəddəs və uca ana obrazları olub. Milli Qəhrəman Kazım Məmmədovun anası Dursun xala da belə yüksək mərtəbədə olan anadır və onun da ədəbiyyatda bu cür obrazı yaradılmalıdır...

Axırda məktəb rəhbərliyi tərəfindən tədbirin təşkilindəki əməyinə görə müəllimlərdən Səidə Quliyeva, Mətanət Rafiq qızı, Raziyyə Xanalı qızı, Aysel Əmir qızı, tədbirdə fəal çıxışlarına görə isə məktəblilərdən Əfsanə Rzayeva, Gülgün Quliyeva, Pünhan İbrahimli, İlkin Əhmədov, Rəşad Ağazadə, Xədicə Teymurlu, Dadaş Teymurlu Fəxri Fərmanlarla təltif olundular.

*Şakir SSLİFOĞLU*

Kredo 2019.- 31 yanvar.- S.15.